

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 31 dekabr 2023-cü il №99 (2811) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın Sankt-Peterburq şəhərinə işgüzar səfəri



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün dekabrın 26-da Sankt-Peterburq şəhərinə işgüzar səfər edib.

Sankt-Peterburq şəhərinin "Pulkovo-1" hava limanında dövlətimizin başçısını Sankt-Peterburq şəhərinin qubernatoru Aleksandr Beqlov və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Dekabrın 26-da Rusiyanın Sankt-Peterburq şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə görüşü olub.

Görüşdə Azərbaycan ilə Belarus arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafı bir daha məmnunluqla qeyd edilib, əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı potensialın mövcud olduğu bildirilib. Yüksək səviyyəli görüşlərin və təmasların əlaqələrimizin möhkəmləndirilməsi işinə töhfə verdiyi vurğulanıb.

Dövlət başçıları əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini ifadə edərək gələcək təmaslar və əməkdaşlığımızın perspektivləri barədə fikir mübadiləsi aparıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak edən digər ölkələrin rəhbərləri dekabrın 26-da Sankt-Peterburqda "Yekaterina sarayı" ("Екатерининский дворец") ilə tanış olublar.

XVIII əsr memarlığının şah əsəri sayılan "Yekaterina sarayı"nın inşası 1744-1756-cı illəri əhatə edib. 1918-ci ildə "Yekaterina saray-park ansamblı" muzeyə çevrilib.

İkinci Dünya müharibəsi illərində faşist istilası zamanı bu tarixi abidə dağıdılaraq talan edilib, muzey kolleksiyasının əhəmiyyətli hissəsi itirilib, dağıntılar və talan nəticəsində abidəyə ciddi ziyan dəyib. "Yekaterina sarayı"nın bərpası 1957-ci ildən bəri davam edir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak edən digər ölkələrin rəhbərləri dekabrın 26-da Sankt-Peterburqda "Böyük Peterhof Sarayı" ("Большой Петергофский дворец") ilə tanış olublar.

* * *

Dekabrın 26-da Sankt-Peterburqda MDB Dövlət Başçılarının qeyri-rəsmi görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Rusiya Prezidenti Vladimir Putin görüşdə çıxış edib.

* * *

Dekabrın 26-da Rusiyanın Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının birgə naharı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə işgüzar səfəri dekabrın 26-da başa çatıb.

**AZƏRTAC-ın materialları əsasında**

## Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə əlaqədar paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşılan fotonun üzərində "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni iliniz mübarək!" sözləri yazılıb.

## Birinci vitse-prezident Mehriban Əliyeva Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar rəsmi instaqram səhifəsində paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Əziz bacılar və qardaşlar!

Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və qarşıdan gələn Yeni il münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Qoy, dünya azərbaycanlılarını hər zaman Vətənimizə olan ən nurlu, ən xoş hisslər, ölkəmizin uğurları, nailiyyətləri və qələbələri ilə qürur hissi birləşdirsin. Uca Tanrıdan hər bir vətəndaşımıza möhkəm cansağlığı, uzun ömür və xoşbəxtlik, Vətənimizə isə sülh, tərəqqi və əmin-amanlıq diləyirəm.

Dərin hörmət və sevgilərlə,
Sizin MEHRİBAN".

## Azərbaycan Respublikasının müdafiə nazirinin 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar və mülki işçilər!

Sizi 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, əzmli və iradəli olmağınızı arzulayıram.

Ölkəmizin inkişafında prioritet istiqamətlərdən hesab edilən Azərbaycan Ordusunun hərbi qüdrətinin gündən-günə artırılması respublikamızın müdafiəsinə və təhlükəsizliyinin təminatına möhkəm zəmin yaratmışdır. Möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi altında dövlət və ordu quruculuğu istiqamətində görülən mühüm işlər sayəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzu daha da artmışdır.

Respublikamızın müdafiə qüdrətinin artırılması istiqamətində qazanılan böyük nailiyyətlər, eyni zamanda, orduda aparılan genişmiqyaslı islahatlar, keçirilən təlimlər, düşmənin təxribatlarına qarşı aparılan uğurlu irimiqyaslı əks-hücum əməliyyatları şəxsi heyətin qələbə əzmini daha da möhkəmləndirərək 2020-ci il Azərbaycan Ordusunun tarixinə Zəfər ili kimi yazıldı. Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı parlaq qələbə və həyata keçirdiyi uğurlu döyüş əməliyyatları nəticəsində düşmən işğalında qalmış tarixi torpaqlarımız azad olundu. Xankəndi şəhərində keçirilən 8 Noyabr - Zəfər Gününə həsr olunmuş Zəfər Paradı gündən-günə qüdrətlənən Azərbaycan Ordusunun yenilməzliyini bir daha təsdiq etdi.

Dövlət müstəqilliyimizin əsas atributlarından biri sayılan üçrəngli bayrağımızın əzəmətlə dalğalandığı işğaldan azad edilmiş ərazilərdə rəşadətli Azərbaycan Ordusu öz mövqelərini daha da möhkəmləndirməklə yenidənqurma-bərpa işlərinin ən yüksək səviyyədə həyata keçirilməsinə, böyük qayıdışa layiqli töhfələrini verməkdədir.

Əminəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi anda və nizamnamələrə daim sadiq qalaraq döyüş və mənəvi-psixoloji hazırlığınızı gücləndirəcək, xidmətinizdə yeni uğurlar əldə etmək üçün səy və bacarıqlarınızı daha da artıracaqsınız.

Hərbi Anda sədaqətə, çətin və şərəfli xidmətdə fədakarlığa görə hər birinizə minnətdarlığımı bildirirəm. Hər zaman olduğu kimi bu bayram günlərində də Azərbaycanın suverenliyi, müstəqilliyinin qorunması və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizi ehtiramla yad edir, unudulmaz xatirələrini əziz tuturuq.

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə hər birinizi ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti, Vətənə, müstəqil Azərbaycan dövlətinə şərəfli xidmətinizdə uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının müdafiə naziri**

# Müdafiə Nazirliyinin rəhbərliyi bayram ərəfəsində hospitalı ziyarət edib





*Müdafiə Nazirliyinin rəhbər heyəti Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində Baş Klinik Hospitalı ziyarət edib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hospitalın ərazisində ucaldılan abidəsi önünə gül dəstələri qoyulub, xatirəsinə dərin hörmət və ehtiram nümayiş etdirilib.

Baş Klinik Hospitalda müalicə olunan hərbi qulluqçularla və tibb personalı ilə görüşən general-polkovnik Zakir Həsənov onlara Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təbriklərini çatdırıb.

Nazirliyin rəhbər heyəti prosesi ilə maraqlanıb, xəstə və yaralıların tezliklə sağlamlıqlarına qovuşmalarını və Ordu sıralarında xidmətlərini davam etdirmələrini arzulayıb.

Hospitalın tibb personalının peşəkarlığı, burada xəstə və yaralı hərbi qulluqçuların müalicəsi zamanı göstərilən xidmətlər yüksək qiymətləndirilib.

Şəxsi heyətə bayram hədiyyələri təqdim edilib.





# Azərbaycan Ordusunda cari ilin yekununa dair iclaslar keçirilib





*Azərbaycan Ordusunun Baş Qərargahı, Müdafiə Nazirliyinin baş idarə, idarə, xidmət və müstəqil şöbələri, eləcə də bütün qoşun növləri və xüsusi təyinatlı təhsil müəssisələrində 2023-cü ilin sonuna dair yekun iclaslar keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, keçirilən iclaslar zamanı Azərbaycan Ordusunun cari ildəki fəaliyyəti geniş təhlil edilib. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Ordu qarşısında qoyduğu tapşırıqlar bir daha şəxsi heyətə çatdırılıb.

Hərbi qulluqçuların döyüş hazırlığının və mənəvi-psixoloji vəziyyətinin yüksək səviyyədə olduğu bildirilib. Şəxsi heyətin vətənpərvərlik ruhunda tərbiyə olunması, hərtərəfli təminatı, o cümlədən qoşunların peşəkar kadrlarla komplektləşdirilməsi istiqamətində görülən işlərdən danışılıb.

Azərbaycan Ordusunda aparılan uğurlu islahatlar nəticəsində əldə edilən nailiyyətlər qeyd edilib və şəxsi heyətin bundan sonra da Ali Baş Komandanın istənilən tapşırığına hər an hazır olduğu xüsusi vurğulanıb.

İclaslarda növbəti ildə şəxsi heyətin xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili, sosial-məişət şəraitinin yaxşılaşdırılması, hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması istiqamətində həyata keçiriləcək tədbirlər və perspektiv planlar müzakirə olunub.

Sonda cari ilin yekununa əsasən hərbi xidmətdə fərqlənən hərbi qulluqçular təltif ediliblər.





# “Yaşıl dünya naminə həmrəylik ili”

*Azərbaycan 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını ratifikasiya etdikdən sonra qlobal iqlim dəyişmələrinin mənfi təsirlərinin yumşaldılması üzrə beynəlxalq səylərə qoşulub. Ölkəmiz bu il Dubayda keçirilən İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına COP28-də böyük nümayəndə heyəti ilə iştirak etdi. Azərbaycanın diplomatik uğuru nəticəsində həmin toplantıda COP29-un gələn il ölkəmizdə keçirilməsinə qərar verildi.*




Azərbaycanın 2024-cü ildə İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransına - COP29-a ev sahibliyi etməsi böyük məsuliyyətdir. Bu mötəbər tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsi və ölkəmizə olan böyük inamın təzahürüdür.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Sərəncamda bildirilib ki, Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Qlobal təşəbbüslərə həmişə ilk qoşulan ölkələrin sırasında olan Azərbaycan bərpaolunan enerji sektorunun yaradılması istiqamətində önəmli addımlar atıb. Dünyanın nəhəng şirkətləri ilə anlaşma memorandumları imzalanıb. Ölkəmiz bütün sahələrdə olduğu kimi, bu məsələdə də Cənubi Qafqazda birincidir. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Ölkəmizin hədəfi 2030-cu ilə qədər istixana effekti yaradan qazların emissiyalarını 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaltmaqdır.

İki il əvvəl təbiətdə baş verən qlobal iqlim dəyişikliklərinə qarşı mübarizədə ölkəmiz 2030-cu ilə qədər istehsal olunan elektrik enerjisinin 30 faizinin bərpa olunan enerji ilə əvəz olunması ilə bağlı könüllü öhdəlik götürüb. 2020-ci ildə dövlət başçımız işğaldan azad olunmuş əraziləri yaşıl zona adlandırması ilə əlaqədar, bu ərazilərin bərpaolunan enerji potensialının reallaşdırılması istiqamətində ciddi addımlar atılıb.

Azərbaycan hökuməti Naxçıvan Muxtar Respublikasını, işğaldan azad olunmuş Şərqi Zəngəzur və Qarabağ ərazilərini yaşıl enerji zonası elan edib. İşğaldan azad olunmuş bölgələrə böyük qayıdış layihələrinə başlanılıb. Bərpa-quruculuq işləri çərçivəsində həyata keçirilən meqalayihələr yaşıl texnologiyalara əsaslanır. Azad olunmuş bölgələrdə ağıllı şəhərlər, kəndlər salınacaq, təmiz nəqliyyat infrastrukturu yaradılacaq. İri şəhərlərdə, xüsusən Bakıda, Sumqayıtda, Gəncədə elektromobillərdən, eləcə də velosiped və skuterlərdən istifadə edənlərin sayı artıb. Ümumiyyətlə, Azərbaycan iqlim dəyişikliklərinə qarşı qlobal mübarizəni sistemli olaraq dəstəkləyir və enerji səmərəliliyi ilə bağlı tədbirlər görür.

Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizədə öz töhfəsini verərək ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparır.

Bu baxımdan bərpaolunan enerji sahəsində təcrübəli, dünyanın aparıcı şirkətləri olan Aquapower və Masdarla sazişlər imzalanmış, günəş və külək enerjisi stansiyalarının tikilməsi ilə bağlı sənədlər təsdiq olunub. Bu il Masdar şirkətinin investisiyası ilə 230 meqavat gücündə Qaradağ günəş enerji stansiyası tikilərək istifadəyə verilib. Ümumiyyətlə, ölkəmizin bərpaolunan enerji potensialının 200 qiqavat olduğu dəyərləndirilib. Azərbaycan dövləti bu potensialın realizə olunması istiqamətində ciddi addımlar atır və yaxın gələcəkdə bərpaolunan enerjinin, yaşıl hidrogenin Qara dənizin dibi vasitəsilə Avropaya ixrac olunmasını həyata keçirəcəkdir. Bu enerji istehsalında istifadə olunan qaza qənaət olunmasına yol açacaq, Avropaya ixrac imkanlarımızı genişləndirəcəkdir. Avropa Azərbaycandan daha çox təbii qaz aldıqca elektrik enerjisinin istehsalı üçün istifadə olunan kömürün yandırılmasını azaldacaq və atmosferə atılan istilik effektli qazların azalmasına töhfə verəcəkdir. Beləliklə, Azərbaycan karbohidrogen enerjilərinə malik dövlət olmasına baxmayaraq, yaşıl enerjiyə üstünlük verirsə, bu, ölkəmiz üçün təqdirolunandır.

Planetimiz ciddi ekoloji böhranla və su qıtlığı ilə qarşı-qarşıya olduğu bir vaxtda bizi mühüm vəzifələr gözləyir. Azərbaycan həm bərpaolunan enerji yaradır, həm də yaşıllaşdırma işlərini davam etdirir. Cəmiyyət olaraq təmiz ekoloji mühitin qorunması, meşə və su resurslarının mühafizəsi, yaşıllıqların genişləndirilməsi naminə qüvvələrimizi səfərbər etməliyik. Azərbaycan ev sahibliyi etdiyi bütün beynəlxalq tədbirləri yüksək səviyyədə keçirərək yeniliklər gətirib. "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Azərbaycan COP29-da əhəmiyyətli qərarların qəbul olunmasına təşəbbüs nümayiş etdirməklə, iqlim dəyişikliklərinə verdiyi töhfələrini əyani şəkildə dünya ictimaiyyətinə çatdıracaq və bütün dünyanı bu qlobal çağırışa həmrəylik göstərilməsində birləşdirərək bir daha özünün dünya liderliyini təsdiq edəcəkdir.

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunda xidmət etmək şərəfdir

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin qayğısı ilə daha da qüdrətlənən Azərbaycan Ordusunda peşəkarlıq, qətiyyət, vətənpərvərlik kimi üstün keyfiyyətləri özündə cəmləşdirən hərbi qulluqçular xidmət edirlər. Əlbəttə ki, qalib ordunun zabiti, giziri, çavuşu, əsgəri olmaq insana fəxarət hissi yaşadır. Tədris ilinin qış və yay tədris dövrlərində kurs, məşğələ və təlimlərdə, döyüş növbətçiliyində daha da peşəkarlaşan Azərbaycan hərbçisi regionda söz sahibi olan ölkədə xidmət etməyi şərəf işi hesab edir.*



Hər keçən gün gücünə güc qatan Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsi və geridə qoyduğumuz 2023-cü ildə həyata keçirdiyi əməliyyat tədbirləri ilə ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etdi. Düşməni darmadağın edərək öz suveren ərazisində erməni separatizminə son qoyan Azərbaycan bir daha göstərdi ki, regionda əsl söz sahibidir və diktə edən tərəfdir. Azərbaycanın döyüş meydanında və siyasi arenada qazandığı zəfərlərə 2023-cü ildə yeniləri əlavə olundu və bütün dünya bir daha Azərbaycanın qüdrətinin şahidi oldu.

İşğaldan azad edilmiş ərazilərdə ilk dəfə keçirilən və Xankəndi stadionunda baş tutan futbol matçında Ali Baş Komandan cənab İlham Əliyev Azərbaycanın qazandığı parlaq qələbədən danışaraq bildirdi ki, "İşğal edilmiş torpaqların böyük hissəsi üç il bundan əvvəl - İkinci Qarabağ müharibəsi nəticəsində işğalçılardan azad edildi. Qarabağın tacı olan Şuşa şəhərində Azərbaycan Bayrağı qaldırıldı. Üç ay bundan əvvəl - sentyabrın 19-20-də Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə rayonları da işğalçılardan azad edildi. Oktyabrın 15-də bütün bu şəhərlərdə mən Azərbaycan Bayrağını ucaltdım. Noyabrın 8-də Xankəndinin mərkəzi meydanında Zəfər paradı keçirildi. Bu gün isə bu gözəl idman bayramını biz birlikdə qeyd edirik. Bundan sonra bu torpaqlarda Azərbaycan Bayrağı əbədi dalğalanacaq. Biz azərbaycanlılar burada əbədi yaşayacağıq! Yaşasın, Qarabağ! Yaşasın, şanlı Ordumuz! Qarabağ Azərbaycandır!"

Müzəffər Ali Baş Komandanın Xankəndi stadionunda "Qarabağ" və "MOİK" klublarının qarşılaşması zamanı səsləndirdiyi fikirlər həm də Azərbaycan Silahlı Qüvvələrinin peşəkarlığına və fədakarlığına verilən ən yüksək dəyərdir. Çünki milli-mənəvi dəyərlərə və dövlətçiliyə sadiq vətənpərvər ruhda yetişən Azərbaycan hərbçisi 2023-cü ildə əməliyyat tədbirlərində elə bir peşəkarlıq və insanpərvərlik nümayiş etdirdi ki, uşaq qatili olan düşmənimiz utandı. Erməni separatizmini dəstəkləyən qüvvələr belə Azərbaycan Ordusunun peşəkarlığı və humanistliyi qarşısında aciz qaldılar. Keçirilən əməliyyat tədbirlərində bütün dünya gördü ki, uzun illər separatçıların girovuna çevrilmiş mülki ermənilərdən bir nəfərin də olsun burunu belə qanamadı. Bax, budur, Vətəninin və vətəndaşının azadlığı üçün döyüşən Azərbaycan hərbçisinin işğalçı Ermənistandan fərqi!

Dünyada və regionda baş verən proseslər fonunda Azərbaycan Ordusunun peşəkarlığının daha da artırılması, şəxsi heyətin hərtərəfli hazırlığının yüksəldilməsi və təminat məsələlərinin yüksək səviyyədə həlli dövlətimizin qüdrətindən, dövlət-xalq-ordu birliyinin möhkəm təməlindən xəbər verir. Eyni zamanda, Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu, NATO və tərəfdaş ölkələrlə hərbi, hərbi-texniki, hərbi-təhsil, hərbi tibb sahəsində əməkdaşlığı daha da genişlənir. Ən əsası da terrorla mübarizə əməliyyatlarını yüksək peşəkarlıqla və qətiyyətlə aparan, müdafiə sənayesini hər keçən gün daha da inkişaf etdirən qardaş Türkiyə ilə müttəfiqlik Azərbaycanın hərbi gücünə güc qatır.

Əlbəttə ki, bu gün rəşadətli ordumuzun əsgərləri haqqında saatlarla danışsaq, yenə də azdır. Çünki qəhrəmanlığı ilə dastan yazan Azərbaycan hərbçisi Vətənimizin müdafiəsində cəsarətlə dayanır, döyüş növbətçiliyini uğurla təşkil edir və aparır.

Bir sözlə, Azərbaycan Respublikasının bütövləşdiyi 2023-cü ili şərəfli xidmətlə, ləyaqət və fəxarətlə başa vuran əsgərlərimiz 2024-cü ili də sevinc və qürurla qarşılayırlar. Azərbaycan zabitini, gizirini, çavuşunu və əsgərini hər bir vətəndaşımız ürəkdən təbrik edir. Bu soyuq, şaxtalı havalarda, çətin relyefli ərazilərdə, uca zirvələrdə xidmət edən Azərbaycan Ordusu mənsublarına isti-isti təbriklər çatdırmaq, əlbəttə ki, xalqımızın Vətən sevgisindən xəbər verir.

Yeni ildə də düşməni təşvişdə saxlayan əzmkarlığın, qətiyyətin, sayıqlığın və uğurların bol olsun, Azərbaycan əsgəri!

**Nəriman NƏCƏFOV**
**Naxçıvan Muxtar Respublikası**

# Naxçıvan Qarnizonu Mərkəzi Hospitalına bayram sovqatı aparılıb





*Dekabrın 30-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvan Qarnizonu Mərkəzi Hospitalında olub və burada müalicə alan hərbi qulluqçularla görüşüb.*

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, hospitalın Poliklinika, Cərrahiyyə, Əməliyyat və Yoluxucu xəstəliklər bölmələrində olan səlahiyyətli nümayəndəyə hərbi tibb müəssisəsinin fəaliyyət imkanları barədə məlumat verilib. Qeyd edilib ki, muxtar respublikada ən böyük tibb müəssisələrindən biri olan mərkəzi hospitalın bütün bölmələri, o cümlədən əməliyyat otaqları ən müasir avadanlıqlarla təchiz olunub, peşəkar tibbi personalla komplektləşdirilib. Burada laparoskopik cihaz vasitəsilə qapalı əməliyyatların aparılması da mümkündür. İnfeksion xəstəliklərin müalicəsi hospitalın modul tipli yoluxucu xəstəliklər bölməsində həyata keçirilir.

Fuad Nəcəfli hərbi qulluqçuların səhhəti ilə maraqlanıb, onları Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edərək hər birinə hədiyyələr təqdim edib.

Sonra Mərkəzi Hospitalın tibbi heyəti və hərbi qulluqçularla görüşən Fuad Nəcəfli 2023-cü ilin ölkəmiz üçün olduqca uğurlu il olduğunu, "Heydər Əliyev İli"ndə Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi, qəhrəman övladlarımızın şücaəti nəticəsində suverenliyimizin tam bərpa olunduğunu bildirib. Qeyd edib ki, bu əlamətdar ildə Naxçıvanda da mühüm layihələrə başlanılıb.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın icrasının Naxçıvanda böyük infrastruktur və sosial layihələrin icrasına geniş imkanlar yaradacağını vurğulayan Fuad Nəcəfli tibbi personala Vətən keşikçilərinin qayğısına qaldıqlarına görə təşəkkür edib, hər kəsə qarşıdan gələn bayramlar münasibətilə təbriklərini çatdırıb, 2024-cü ildə daha böyük uğurlar və cansağlığı arzulayıb.

Tibb xidməti polkovniki Ramil Cəfərli göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Qeyd edək ki, həmin gün Naxçıvan Qarnizonu Mərkəzi Hospitalında müalicə alan hərbi qulluqçular, eləcə də tibb işçilərinə 200 bayram hədiyyəsi verilib, gətirilmiş ərzaq məhsulları hospitala təqdim olunub.







# MİK-də cari ilin yekunlarına dair toplantı keçirildi

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi hazırlıq planına əsasən, Mərkəzi İdman Klubunda (MİK) 2023-cü ilin yekunlarına həsr olunan toplantı keçirildi.*

Toplantıda Mərkəzi İdman Klubunun və Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin nümayəndələri iştirak etdilər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbirdə çıxış edən MİK-in rəisi polkovnik-leytenant Ramiq Orucov bildirdi ki, bu il Mərkəzi İdman Klub üçün uğurlu il olmuşdur. "Bütövlükdə il ərzində klubda görülmüş işlərə yüksək qiymət verməl olar. Belə ki, ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr icra edilmiş, klubun gündəlik həyatında dinamik inkişaf təmin olunmuşdur. Bunu idmançılarımızın respublika və beynəlxalq səviyyəli yarışlarda əldə etdikləri nailiyyətlər təsdiqləyir. Bütövlükdə son illərdə dövlət rəhbərliyi və yuxarı komandanlıq tərəfindən klubumuza göstərilən qayğı və diqqət bu gün öz nəticələrini verməkdədir.

Təsadüfi deyildir ki, işğaldan azad olunmuş ərazilərdə uzun illər sonra keçirilən və Azərbaycanın futbol tarixinə qızıl hərflərlə qeyd olunan ilk



futbol yarışı məhz klubumuzun adı ilə bağlıdır. Azərbaycan Kubokunun səkkizdəbir final mərhələsinin Xankəndidə keçirilən oyununda 8 dəfə Azərbaycan çempionu, 6 dəfə ölkə kubokunun sahibi olmuş "Qarabağ" komandasıyla qarşılaşan futbolçularımız minimal hesabla məğlub olmalarına baxmayaraq, sona qədər yüksək əzmkarlıq göstərərək, ordumuzu layiqincə təmsil etdilər. Xankəndi stadionunda keçirilən oyunu canlı izləyən Müzəffər Ali Baş Komandan oyundan əvvəl çıxışında deyib: "Bugünkü oyunun nəticələrindən asılı olmayaraq qalib bəllidir. Qalib Azərbaycan xalqıdır, Azərbaycan dövlətidir! Bugünkü oyunda "Qarabağ" və Mərkəzi Ordu İdman Klubunun qarşılaşması, təbii ki, böyük rəmzi məna daşıyır. Qarabağ-Ordu-Xalq birliyi bizim Zəfərimizin əsas mənbəyidir".

Dünya və Avropa çempionatlarında da idmançılarımız ölkəmizi ləyaqətlə təmsil etmişdilər. İdmançılar beynəlxalq yarışlarda 19 medal qazanmışdılar, onlardan 7-si qızıl medaldır. Beynəlxalq yarışlar arasında xüsusilə Serbiyanın paytaxtı Belqrad şəhərində keçirilən güləş üzrə dünya çempionatını qeyd etmək istərdim. Bildiyiniz kimi, çempionatda 2 qızıl, 3 gümüş medal qazanan yunan-Roma güləşi üzrə Azərbaycan millisi tarixi uğura imza ataraq, komanda hesabında dünya çempionu olmuşdur. Sevindirici haldır ki, bu yarışda qazanılmış medallardan ikisi məhz Mərkəzi İdman Klubunun idmançılarının payına düşür. Belə ki, idman kompleksinin TİR (atıcı silahların) təlimatçısı kapitan Rafiq Radik oğlu Hüseynov qızıl, idman bölüyünün idmançısı Həsrət Valeh oğlu Cəfərov isə gümüş medal qazandılar.

Mən əldə edilmiş bütün uğurlar münasibətilə idmançıları, onların məşqçilərini bir daha təbrik etmək istəyirəm. Bir daha sizə yeni qələbələr, yeni uğurlar arzulayıram".

Sonra növbəti ildə planlaşdırılan yarış və idman tədbirlərində ölkəmizi layiqincə təmsil etmək üçün aidiyyəti üzrə müvafiq şəxslərə tapşırıqlar verilib.

Cari ilin yekununa əsasən hərbi intizamın möhkəmləndirilməsində, eləcə də idman sahəsində yüksək göstəricilərin əldə edilməsində fərqlənənlər təltif olundular.

Sonda xatirə şəkli çəkdirildi.

**Kapitan**
**Orxan HÜSEYNLİ,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# Qalib Azərbaycan xalqıdır, Azərbaycan dövlətidir

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

*"Bu futbol matçının Xankəndidə keçirilməsinin çox böyük mənası var. Xankəndi qədim Azərbaycan diyarıdır. Bu kəndin təməli Qarabağ xanı tərəfindən qoyulmuşdur və ondan sonra Azərbaycan Respublikasının vəsaiti hesabına Azərbaycan memarları, inşaatçıları tərəfindən böyük şəhər yaradılmışdır. Əfsuslar olsun ki, 30 il ərzində bu şəhərdə separatçılar yuva salmışdılar. Bu şəhər separatizmin rəmzinə çevrilmişdi. Torpaqlarımızı 30 il ərzində işğal altında saxlayan Ermənistan hesab edirdi ki, bunu əbədi edə biləcək. Biz, şanlı Azərbaycan Ordusu onlara və bütün dünyaya sübut etdik ki, bu, bizim tarixi, əzəli torpağımızdır. Bu torpaqların sahibləri bizik, Azərbaycan xalqıdır. Biz buraya qayıtmalı idik və qayıtmışıq".*



2023-cü ilin 21 dekabr tarixi hər bir azərbaycanlı, o cümlədən, ölkə idmanı üçün qürur təqviminin bir parçası oldu. Belə ki, futbol üzrə "Qarabağ" və "MOİK" klubları arasında Azərbaycan kubokunun səkkizdəbir final qarşılaşması məhz 2 ay əvvəl üçrəngli bayrağımızın ucaldıldığı Xankəndi şəhərində keçirildi. Məlumat üçün qeyd edək ki, tarixi ərazilərimiz işğal olunmamışdan əvvəl o yerlərdə keçirilən son oyun Ağdamın "İmarət" stadionunda "Qarabağ" və "Turan Tovuz" komandaları arasında olmuşdu. Bunun nəticəsi idi ki, 30 ilə yaxın həsrətdən sonra tarixi, əzəli və əbədi torpaqlarımızdan Xankəndidə keçirilən futbol oyununa maraq çox böyük idi. Belə ki, iki ay ərzində görülən təxirəsalınmaz işlər nəticəsində yenidən qurulmuş və abadlaşdırılmış Xankəndi stadionu tarixi hadisəyə ev sahibliyi etməyə hazır idi. Təsadüfi deyildi ki, "Qarabağ" və "MOİK" futbolçuları arasında keçirilən qarşılaşmanı idarə edən hakimlər briqadasından baş hakim Əli Əliyev, dördüncü hakim funksiyasını yerinə yetirən Kamal Umudlu və yan xətt hakimi Taleh Məmmədov 44 günlük haqq savaşımızın iştirakçıları olmuşdular. 44 günlük haqq savaşı zamanı pozulmuş ədaləti döyüş meydanında bərpa edən əsgərlərimiz həmin gün idman meydanında ədaləti təmin etmək üçün orada idilər. Möhtəşəm tarixi oyunda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva iştirak edirdilər. Komandaların futbolçuları İkinci Qarabağ müharibəsi zamanı canından keçmiş şəhidlərimizin övladlarının əllərindən tutaraq meydana daxil oldular. Tarixi oyunda əvvəlcə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin açılış nitqini səsləndirməsi, topa rəmzi məna daşıyan ilk zərbəni vurması və oyunu şəhid övladları ilə birgə izləməsi hər bir azərbaycanlının xatirəsində daim yaşayacaq anlar idi.

Oyuna gəldikdə qarşılıqlı mübarizə və dostluq şəraitində keçən görüşdə favorit olan "Qarabağ" komandası uzatma dəqiqələrinin son saniyələrində vurduğu qolla dörddəbir mərhələyə vəsiqə qazandı. Təbii ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin də qeyd etdiyi kimi, oyunun nəticəsindən asılı olmayaraq qalib bəlli idi. Qalib Azərbaycan xalqı, Azərbaycan dövləti oldu! Önəmli olan "Qarabağ" və "MOİK" komandaları arasında keçirilən görüşün tarixi əhəmiyyət daşıması idi ki, bu oyunda iştirak edən hər kəs bu tarixin tərkib hissəsi olmaqdan qürur duyacaq.

İşğaldan azad edilmiş ərazilərdə təşkil olunan ilk futbol matçının iştirakçıları olan "MOİK"-in baş məşqçisi və futbolçularının fikirlərini və təəssüratlarını qələmə aldıq. Əvvəlcə baş məşqçi Qəzənfər Abbasovla həmsöhbət olduq. "Bu gün Azərbaycanın həm dövlətçilik, həm də idman tarixində ən mötəbər günlərdəndir. İşğaldan azad edilmiş ərazilərdə keçirilən futbol matçının iştirakçısı olmaq qürurvericidir. Öyrənəndə ki, "Qarabağ" komandası ilə Azərbaycan kubokunun səkkizdəbir mərhələsində oyunumuz Xankəndidə keçiriləcək, hər birimiz qürurlandıq, fərəhləndik. Tarixi yurd yerimiz, ata-babalarımızın bizə miras qoyduğu torpaqlara qayıtmaq hər bir azərbaycanlının çoxdankı arzusu idi. Dekabrın 21-də Xankəndi stadionunda keçirilən oyun bizim xalq olaraq öz doğma torpaqlarımıza qayıdışımızın simvolu oldu. Müzəffər Ali Baş Komandanımızın çıxışı hər birimizin qürurunu artırdı. Oyun boyunca azərkeşlərin dəstəyi pik səviyyədə idi. Baxmayaraq ki, komandamız "MOİK" növbəti mərhələyə keçə bilmədi, Xankəndidə meydana çıxıb doğma soydaşlarımızın qarşısında 90 dəqiqə mübarizə aparmaq qələbəyə bərabər bir hissdir. Futbolda hər şey mümkündür. Və qarşımızdakı rəqib də ölkəmizi beynəlxalq arenalarda uğurla təmsil edən "Qarabağ" komandası idi. Oyunçular sona qədər inamla mübarizə apardılar. Qarşılıqlı dostluq və mübarizə şəraitində keçən qarşılaşmada artırma dəqiqələrində buraxdığımız qol, növbəti mərhələyə adlamağımıza mane oldu. Hər bir halda, "Qarabağ" komandasına qarşıdakı oyunlarda uğurlar arzu edirik. Beynəlxalq arenalarda çətin qarşılaşmalarda qələbələr diləyirik. Liqa və kubok oyunlarında bir-birimizlə mübarizə aparsaq da, Avropa turnirində çıxış edən hər bir komandamızın uğuru ölkəmizin uğurudur. Sonda qeyd edim ki, Xankəndidən xoş təəssüratlarla ayrıldıq. Azərkeşlərə oyun boyunca bizi dəstəklədikləri üçün minnətdarıq. Və onu da qeyd etmək yerinə düşərdi, hər birimiz uzun illər yaddaşlarda yaşayacaq 21 dekabrın Xankəndi şəhər stadionunda keçirilən oyun tarixinin bir parçası olmaqdan qürur duyuruq. Bu günləri bizlərə yaşadan hər kəsə minnətdarıq, canı və qanı ilə bugünkü firavanlığımızı təmin edən oğullarımıza bir ömür borcluyuq".

Komandanın kapitanı İsa Zeynallı bizimlə söhbəti əsnasında bildirdi ki, gərgin mübarizə şəraitində keçən qarşılaşmada növbəti mərhələyə yüksələ bilməsələr də, 30 ildən sonra əzəli və əbədi torpaqlarımızda 90 dəqiqə futbol oynamaq bizim üçün dünyanın aparıcı stadionlarında oynamaqdan daha qürurvericidir. "Məşqçilərimizin proqramına əsasən, bu oyuna ciddi hazırlaşırdıq. Hər zaman qələbə qazanmaq və yüksək nailiyyətlər əldə etmək üçün mübarizə aparmışıq. Səkkizdəbir mərhələdə qarşı-qarşıya gəldiyimiz "Qarabağ" komandası ölkənin son illərdə ən yüksək nəticələr göstərmiş komandasıdır. Ciddi hazırlığımızın nəticəsi idi ki, oyun minimal hesabla başa çatdı. Sonacan gərgin mübarizə getdi. İstərdik ki, növbəti mərhələyə çıxaq, amma futbol 90 dəqiqə ərzində aparılan komanda mübarizəsi oyunudur. Cənab Prezidentin də söylədiyi kimi, oyunun nəticələrindən asılı olmayaraq, qalib bəlli idi. Qalib hər birimiz idik. Işğaldan azad olunan tarixi Xankəndi şəhərinə gəlmək və buranın stadionunda doğma azərkeşlər önündə futbol oynamaq mənim üçün dünya səviyyəli stadionlarda oynamaqdan daha çox qürurludur. Çünki hər birimiz bu günü çoxdan gözləyirdik. Ümid edirəm ki, azərkeşlərimiz də oyundan razı qaldılar. İnanıram ki, gələcəkdə Xankəndi stadionunda daha böyükmiqyaslı oyunlar keçiriləcək və böyük qələbələr qazanılacaq".

Növbəti müsahibim oyun müddətində "Qarabağ" komandasının hücumlarının qarşısını uğurla dəf etmiş qapıçı Zeynal Əhmədzadə oldu. O dedi: "Hər birimiz qalib olmaq istəyi və əzmi ilə mübarizə apardıq. Məqsədimiz sonacan layiqli oyun sərgiləyib, azərkeşlərə xoş təəssüratlar aşılamaq idi. "Qarabağ" komandası uzun illərdir həm doğma meydanlarda, həm də ölkə hüdudlarından kənarda mübariz oyun sərgiləyir. Ümumi nəticə olaraq pis oynamadığımızı düşünürəm. Uzatma dəqiqələrində vurulan qol bizi növbəti mərhələdən kənarlaşdırdı. Qarşıdakı oyunlarda daha yaxşı nəticələr göstərib, daha böyük uğurlar əldə edəcəyimizə inanırıq. Doğma Xankəndi şəhər stadionunda Ali Baş Komandanımızın və həmvətənlərimizin önündə çıxış etmək mənim karyeramdakı ən unudulmaz və fərəh dolu anlar idi. İllər keçsə də, bu tarix daim yaşayacaq. Meydanda qələbə qazana bilməsək də, ümid edirik ki, azərkeşlərimiz oyunumuzdan razı qaldılar. Gələcəkdə bu meydanda daha böyükmiqyaslı oyunlarda qələbələr qazanacağımıza inanırıq. Və inanırıq ki, Xankəndi şəhər stadionu gələcəkdə daha böyük komandaları qəbul edəcək və gələn komandalar buradan xoş təəssüratlarla ayrılacaqlar".

Müdafiəçi Nicat Əsgərov bu günləri bizlərə yaşadan şəhidlərimizi anmaqla söhbətə başladı. "Bizlərə bu gün tarixi doğma torpaqlarımızda firavan həyat sürməmizə səbəbkar olanlara sonsuz minnətdarıq. Tarixi zəfəri öz qanı və canı ilə yazan şəhidlərimizin ruhları qarşısında baş əyirik. Azərbaycan əsgəri əsl qəhrəmanlıq simvolu olduğunu öz əməli ilə təsdiq etmiş oldu. Oyuna başlamazdan əvvəl Ali Baş Komandanımızın çıxışı hər birimizə bu günün mahiyyətini və önəmini dərk etdirdi. Həqiqətən də, millət olaraq tarixi günlərimizi yaşayırıq. Həmin gün minlərlə həmvətənimiz stadiondan oyunu izlədisə, mavi ekranlardan daha çox insan bu tarixi anların şahidi oldu. Həmin tarixi hadisənin iştirakçısı olmaq hər birimiz üçün böyük xoşbəxtlik idi. Bunun üçün də mən və komanda yoldaşlarım üzərimizdəki məsuliyyəti dərindən hiss edirdik. Təbii ki, bu oyunda qələbəyə köklənmişdik, lakin futbolda hər şey mümkündür. "Qarabağ" komandası son saniyələrdə vurduğu qolla növbəti mərhələyə yüksəldi. Onlara qarşıdakı oyunlarda uğurlar arzu edirəm. Bizi dəstəkləyən azərkeşlərə minnətdarıq. Sağ olsunlar ki, oyunun əvvəlindən sonuna qədər fəallıq nümayiş etdirdilər. Bu tarixin bir parçası olmaq mənim karyeramda ən böyük nailiyyətlərdəndir".

"MOİK" futbol klubunun yarımmüdafiəçisi Ramil Orucov işğaldan azad edilmiş tarixi torpaqlarımızda oynanan tarixi futbol matçının iştirakçısı olmanın verdiyi qürurdan danışdı. "Xankəndi şəhəri 30 ildən çox idi ki, doğma sakinlərini qəbul edə bilmirdi. Oktyabr ayında Müzəffər Ali Baş Komandanın üçrəngli bayrağımızı dalğalandırmasından iki ay vaxt keçdikdən sonra Xankəndi stadionunda tarixi futbol oyunumuz keçirildi. Tarixdə analoqu olmayan mötəbər hadisədir. Oyun başlamazdan əvvəl Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bizimlə görüşməsi, xatirə fotosu çəkdirməsi və oyunun rəmzi sayılan meydanın mərkəzindən topu oyuna daxil etməsi tarixin səhifələrinə əbədi həkk olundu. Gələcək nəsil bizim bu tariximizlə qürur duyacaq. Ali Baş Komandanımızın, hərbi qulluqçularımızın və qədirbilən xalqımızın vəhdəti sayəsində silinməz tarix yazılıb. Futbol oyununa ölkəmizin hər yerindən qonaqlar gəlmişdilər. Qonaqların ən mötəbər olanları, təbii ki, cənab Ali Baş Komandan və onun əhatəsində olan şəhid övladları idilər. Dövlət başçımızın onlarla birlikdə oyunu izləməsi, şəkil çəkdirməsi onun xalqına və millətinə olan sevgisinin bariz nümunəsidir".

Sonuncu müsahibim hücumçu Sabir Allahquluyevdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Bu torpaqların sahibləri bizik, Azərbaycan xalqıdır. Biz buraya qayıtmalı idik və qayıtmışıq" deməsi hər bir azərbaycanlının qürurunu artıran sözlər olduğunu qeyd edən müsahibim bu tarixin onun və bütün xalqımızın qəlbində əbədi yaşayacağını bildirdi. "Vətənpərvərliyin və futbolsevərliyin mühüm məna kəsb etdiyi həmin tarixi gündə iştirak etdiyimiz üçün hər birimiz sevinirdik. Çünki Xankəndi stadionunda uzun illik fasilədən sonra, o yerlərin həqiqi sakinləri arasında keçirilən futbol qarşılaşmasında iştirak etmək hər kəsə nəsib olmur. Meydana şəhid övladları ilə birgə çıxdıq. Onların hər biri bu xalqın gələcəyidir. Onların hər biri bizə qəhrəmanlarımızın qoyub getdiyi əmanətdir. Tribunalarda oturanların dəstəyi, onların gurultulu alqışları bizlər üçün çox önəmli idi. Onların "Qarabağ Azərbaycandır!", "Yaşasın Azərbaycan!", "Eşq olsun Azərbaycan Ordusuna!" şüarları milyonlarla həmvətənimizin qəlbindəki sözlər idi. Sonda qalib gələn, Prezidentimizin də söylədiyi kimi, Azərbaycan dövləti və Azərbaycan xalqı oldu. Hər birimiz bu tarixlə qürur duyuruq və bundan sonra da qürur duyacağıq. Uzun illərdən sonra Xankəndi şəhər stadionunda yaşanan bayram əhval-ruhiyyəsini və sevinc duyğusunu digər tarixi torpaqlarımızda da tezliklə yaşayacağımıza inanırıq".

Xankəndi şəhər stadionunda baş tutan "Qarabağ" və "MOİK" komandaları arasındakı futbol oyunu dünyaya Azərbaycanın verdiyi mesaj idi. Doğma torpaqlarımızda qarşılaşan - biri bizi dünya arenalarında təmsil edən "Qarabağ", digəri Müdafiə Nazirliyini təmsil edən "MOİK" futbol komandamız bir-biriylə dostluq və yoldaşlıq ab-havasında keçirdiyi oyun dövlət tariximizin səhifələrinə qızıl hərflərlə həkk olundu. Bu tarix Ali Baş Komandan-ordu-xalq birliyi ilə yazılıb.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycançılıq işığı heç zaman zəifləməyəcək!



Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü tariximizin fərəhli bir hissəsidir. Azərbaycançılıqla bağlı olduğuna görə, Azərbaycan üçün qeyd olunduğuna görə, bütün azərbaycanlılar qeyd etdiyinə görə, böyük tarixi şəxsiyyət Heydər Əliyevin təşəbbüsü ilə azərbaycançılığı təşkilatlandırdığına görə...

Azərbaycan Ordusu Azərbaycanın ərazi bütövlüyünü tam bərpa etdi, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə işğaldan azad edilmiş neçə-neçə kəndə, qəsəbəyə, şəhərə qayıdış başladı. Bu il həmin ərazilərdə də 31 dekabr könül xoşluğu ilə qeyd olunacaq.

Vətən müdafiəçiləri Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqımızı təbrik etdilər.

**Gizir Elvin Məmmədov:**

- Çətin və şərəfli peşə sahibi olduğum üçün qürurluyam. Tabeliyimdə olan şəxsi heyətlə Vətənimizin müdafiəsində qətiyyətlə dayanmışıq. Torpaqlarımızı göz bəbəyi kimi qoruyuruq. İşğaldan azad olunmuş ərazilərdə xidmət aparmağın qürurunu biz də yaşayırıq. Qalib və rəşadətli ordunun hərbi qulluqçuları olduğumuz üçün isə ikiqat qürurlanırıq. Artıq 2023-cü ili geridə qoyuruq. Bu il bizim üçün yaddaqalan illərdən oldu. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi, sentyabrda ordumuzun uğurlu əməliyyatlar keçirərək ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etməsi, Xankəndidə möhtəşəm hərbi paradımız.... cari ilin tarixi hadisələri kimi yaddaşlara həkk olundu. Arzu edirəm ki, qarşıdan gələn 2024-cü il də dövlətimiz və xalqımız üçün xeyirli, düşərli olsun. Bütün sahələrdə yeni-yeni uğurlar qazanacağımız il olsun. Başda Prezident, Ali Baş Komandan cənab İlham Əliyev olmaqla, Müdafiə Nazirliyinin rəhbərliyi-



ni, ordumuzun bütün şəxsi heyətini və xalqımızı qarşıdan gələn bayramlar münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

**Əsgər İlkin Hümbətov:**

- Vətən müharibəsi başlayanda orta məktəbdə oxuyurdum. Digər həmyaşıdlarım kimi, mən də döyüşlərin gedişini televiziyadan xəbərlərdən izləyirdim. Mən də özümü döyüşənlərin sırasında hiss edirdim.

Ordumuz tarixi Zəfər qazandı. Bu sevinc Azərbaycanın sərhədlərini aşdı, dünyanın müxtəlif ölkələrində yaşayan bütün azərbaycanlılar bu Zəfəri azərbaycançılığın qələbəsi adlandırırdı. Onda bir daha anladım ki, dünya azərbaycanlılarının hamısı Azərbaycanın mənəvi əsgərləridir.

Asudə vaxtlarımızda əsgər yoldaşlarımızla söhbətləşəndə deyirdik ki, birlik böyük gücdür. İkinci Qarabağ müharibəsində qazanılan Zəfər həm də birliyin, həmrəyliyin, Vətənə sevginin zəfəri idi.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü böyük tarixi şəxsiyyət Heydər Əliyevin təşəbbüsü ilə təsis edilib. Mən də bir Azərbaycan gənci kimi Ulu Öndərin bir çox kəlamını əzbər bilirəm. O kəlamlardan biri də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü haqqındadır: "Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün dövlət bayramı kimi qeyd



edilməsi xalqımızın milli-azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilmişdir. Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır".

Mən qürurlanıram ki, bu il bu gözəl bayramı hərbi xidmətdə qeyd edirəm. Bu ovqat yaddaşımda həmişə qalacaq.

Ordumuzun bütün hərbi qulluqçularını Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edir, hamısına xidməti uğurlar arzulayıram...

**Əsgər Rəvan Məmmədli:**

- Orta məktəbdə tarix fənnini yaxşı oxuyurdum. 1918-ci ilin 28 mayına görə də qürurlanmışam, 1991-ci ilin 18 oktyabrına görə də. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etmişdi. Buna görə də qürurlanmışam. Hər il dekabrın 31-də ürəyim qüruruma darlıq edir.

Vətəndən uzaqda yaşayanların hamısının ürəyində bir həsrət olur. Buna Vətən həsrəti deyirlər. Azərbaycandan uzaqda bu həsrəti yaşamayanlar Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün mahiyyətini dərk edə bilməzlər. Bu həsrətə həmrəyliyin həsrəti deyə bilərik. Atam deyirdi ki, Dünya Azərbaycanlılarının I qurultayında gürcüstanlı nümayəndənin dediklərini heç zaman unutmayacam: "Biz yaxın qəriblikdəyik, bu qədər həsrətliyik, uzaqlarda yaşayanların həsrətini ifadə etməyə söz tapmaq mümkün deyil". Onda Sibirdə yaşayan nümayəndə təsəlli əvəzi böyük şair Səməd Vurğunun misralarını xatırladıb: "Gözüm gözünüzdən uzaq olsa da, Könüldən-könülə yollar görünür". Hər ikisi foyedə Azərbaycan Bayrağına yaxınlaşıb...

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqımızı və silahdaşlarımı təbrik edirəm. Əmin olun ki, biz əsgərlər vəzifə borclarımızı bundan sonra da məsuliyyətlə yerinə yetirəcəyik!..

**Əsgər Mirkazım Abışov:**

- Birlik bir olmaq deməkdir, yəni, bu birliyə daxil olanların hamısının fikirləri ya üst-üstə düşür, ya da uyğun gəlir. Bu uyğunluq da eyni fikirdə olmaq deməkdir. Bu fikirlər xalqla, millətlə, dövlətlə, dövlətçiliklə bağlıdırsa, daha həssas olur.

Ermənistan Azərbaycandan ərazi iddiasına düşəndə, Topxanada alüminium zavodu tikmək istəyəndə, ərazilərimizdə təxribatlar törədəndə xalqın birliyi, bu birliyi ümumiləşdirən milli-azadlıq hərəkatı Mərkəzi narahat etdi, Bakıya sovet qoşunları yeridildi. Mübarizənin həmrəyliyi silahsız müdafiənin də həmrəyliyi oldu. Bu həmrəylik imperiyanın asılılıq zən-



cirlərini parçaladı. 1991-ci il oktyabrın 18-də Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi, Azərbaycanın dövlət müstəqilliyi bərpa olundu. Bu da birliyin, həmfikir olmağın, həmrəyliyin təntənəsi idi.

Biz tələbə olanda professorumuz demişdi: Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün təsis edilməsi böyük tarixi şəxsiyyət Heydər Əliyevin ən böyük xidmətlərindən biridir. Həmrəylik Gününün mahiyyəti hər bir azərbaycanlının Azərbaycan naminə vəzifələrini müəyyənləşdirir. Hərbçilərin vəzifəsi daha gərəklidir: Vətəni qorumaq. Mən də bu ordunun əsgəri olmağımla qürurlanıram, əsgər yoldaşlarım da qürurlanırlar. Hərbi xidmətdən sonra da Vətənin hər çağırışına hazırıq...

Öz adımdan, xidmət yoldaşlarımın adından Ali Baş Komandanı, xalqımızı və Azərbaycan Ordusunun bütün hərbi qulluqçularını Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirəm...

**Əsgər Fərid Cavadov:**

- Məktəbimizdə keçirilən tədbirlərdə rayonumuzda yaşayan Birinci Qarabağ müharibəsi veteranları da iştirak edirdilər. Bütün tədbir iştirakçıları onların dediklərini maraqla, diqqətlə dinləyirdilər. Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş tədbirdə veteranlardan biri dedi: Dövlətin istəyi xalqın istəyidi. Xalq müstəqil olmaq üçün mübarizə apardı, dövlət müstəqilliyini bərpa etdi. Dövlət bu müstəqilliyi qorumaq üçün ordusunu möhkəmləndirir. Ordu dövləti qoruyur. Bunların hamısı məqsəd eyniliyinin, amal eyniliyinin, fikir eyniliyinin təzahürüdür. Ulu Öndər bu eyniliyin də milli-mənəvi dəyər kimi qorunmasını arzulayırdı və bu arzu əbədiliyin yol yoldaşı olacaq bir təşəbbüsü gerçəkləşdirdi: Ulu Öndərin təşəbbüsü ilə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü təsis edildi. Hər il dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunur. Biz veteranlar da bu günü azərbaycançılıq məfkurəsi bilənlərin sırasındayıq. Hərbi xidmətdən tərxis edilsək də, son nəfəsimizə kimi azərbaycançılığın əsgəri olacağıq...

Veteranın dedikləri bizim də düşüncələrimizə hopdu. Mən də, sinif yoldaşlarım da Vətənə əsgər olmağın mahiyyətini onda daha əhatəli dərk etdik: Harada olursansa ol, hansı sahədə işləyirsənsə işlə, özünü Vətənin əsgəri bilməlisən. Bilmirsənsə, Vətən sənə oğul deməyəcək...

Müəllimimiz deyirdi ki, eyni fikirlə, eyni amalla, eyni əqidə ilə yaşayanları Vətənə sevgi birləşdirir. Vətən sevgisi bu birliyin uvertürasıdır. Hərbi qulluqçular dünyəvi, bəşəri mahiyyətə malik olan bir qurumda birləşirlər. Bu qurum Ordudur. Hərbi qulluqçuların xidməti Vətənə sevgidir. Vətən müharibəsini tarixi Zəfərlə bu sevgi tamamladı. Torpaqlarımız işğaldan azad edildi, ərazi bütövlüyümüz tam bərpa olundu. Mən belə bir ordunun əsgəri olmağımla qürurlanıram və bütün hərbi qulluqçuları, onların ailə üzvlərini Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirəm.

**Əsgər Taleh Rzayev:**

- Dislokasiya yeri işğaldan azad edilmiş ərazi olan hərbi hissədə xidmət edirəm. Mən də özümü yaşımın azlığına görə iştirak edə bilmədiyim Vətən müharibəsində qələbə qazanmış əsgərlərin davamçısı hesab edirəm. Onlar tarixi Zəfər qazandı. Komandirimiz deyir ki, bu qələbə xalqın qələbəsi oldu, azərbaycançılığın qələbəsi oldu. Bu tarixi Zəfər təkcə Azərbaycanda deyil, dünyanın müxtəlif dövlətlərində də böyük coşqu ilə qarşılandı. Bütün azərbaycanlılar bu Zəfəri Azərbaycan dövlətinin qüdrəti bildi. Bu Zəfəri müqəddəs Zəfər bilənləri bir amal birləşdirir: Azərbaycançılıq...

2020-ci il dekabrın 31-ni qələbə ruhu ilə qarşıladıq. Həmin gün sinif yoldaşlarımla qonşuluqda yaşayan müharibə əlilini təbrikə getdik. O, hospitaldan təzə qayıtmışdı. Onun təklifi ilə sabah şəhidlərin ziyarətinə getməyi vədələşdirdik. Veteran, "Şəhid oldular, ruhları bizimlə həmrəydi...", - dedi...

Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü biz də böyük ruh yüksəkliyi ilə qeyd edəcəyik. Bayramlar işğaldan azad edilmiş bütün ərazilərimizdə qeyd olunacaq, Azərbaycanın hər yerində "Biz



azərbaycanlıyıq!" coşqusu yaşanılacaq. Mən də Azərbaycan Ordusunun bütün hərbi qulluqçularını bu əziz gün münasibətilə səmimi-qəlbdən təbrik edirəm...

**Əsgərlər Azər Mayılzadə, Mirraqif Hüseynov:**

- İşğaldan azad olunmuş ərazilərdə torpaqlarımızın keşiyində dayanmaqdan biz də qürurluyuq. Azərbaycanlı olmaqdan biz də fərəhlənirik. Uca dağ zirvələrində, çətin relyefli ərazilərdə Vətənimizin inamlı müdafiəsini təşkil edirik. Bu şərəfli və müqəddəs vəzifənin öhdəsindən uğurla gəlib, Vətənə övladlıq borcunu layiqincə yerinə yetirmək tək amalımızdır. Bu amal uğrundan canlarından keçərək şəhid olan qardaşlarımızın əziz xatirəsini heç zaman unutmuruq. Onların əmanətlərini göz bəbəyimiz kimi qoruyuruq. Onların döyüş yolu, Vətən sevgiləri hər birimizə örnəkdir. Hər iki bayram münasibətilə şəhidlərimizin ailə üzvlərini, torpaqlarımızın azadlığı uğrunda sağlamlıqlarını itirən vətəndaşlarımızı təbrik edirik. Fəxr edirik ki, azərbaycanlıyıq, qalib ordunun əsgərləriyik.

**Hazırladı:**
**Baş leytenant**
**Mahmud MÖHBALIYEV,**
**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

*Tarix yazan oğullar*

# Vətənə xidməti uca tutdu...



*Vətən müharibəsi xalqla ordunun birliyini, möhtəşəmliyini, yenilməzliyini nümayiş etdirdi. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev qətiyyətlə bildirdi ki, "Biz bu qələbəmizi zabitlərimizin və əsgərlərimizin qəhrəmanlığı sayəsində əldə etmişik". Bu müdrik kəlam Azərbaycan Ordusunun yenilməzliyinə verilən yüksək qiymətdir.*

Xalqımızın qəhrəmanlıq ənənələrini yaşadan, Vətən fədailərinin davamçısı olan əsgərlərin neçəsi Vətənin azadlığı, müstəqilliyi, suverenliyi uğrunda şəhidlik zirvəsinə ucaldı. Onlardan biri də Şəmkir rayonunun Qaralar kəndindən olan Vaqif Asəf oğlu Hüseynovdur. Onu bu ucalığa Vətənə hədsiz sevgisi yüksəltdi. 2000-ci ildə anadan olan Vaqif Hüseynov Birinci Qarabağ müharibəsi şəhidi Ayaz Bağırovun adını daşıyan orta məktəbdə təhsil alıb. İntizamlı, çalışqan şagirdlərdən olub. Məktəbdə keçirilən vətənpərvərlik tədbirlərində həmişə fəal iştirak edib. Müharibənin dəhşətlərini yeniyetməlik çağlarından duyub. Vətən torpaqlarında düşmənin törətdiyi təxribatları, düşmənə qarşı aparılan döyüş əməliyyatlarında şəhid olan oğulları heç vaxt unutmayıb. Vətən uğrunda döyüşən mərd oğulların davamçısı olmağı qərara alıb.

Ali təhsil almaq istəyinə qovuşmasa da, ruhdan düşməyib, "Hələ ki, vaxt var, müqəddəs Vətən borcunu yerinə yetirib, sonra ali təhsil alaram", - deyib.

2018-ci ilin yanvarında yaxınları, doğmaları onu hərbi xidmətə yola salıblar. Müsəlləh əsgər olacağına söz verib. İlk günlərdən nümunəvi əsgər kimi tanınıb. İctimai-siyasi hazırlıq dərslərində və təlimlərdə fəal iştirak edib. Xidmət müddətini başa vursa da, həmişə, Vətənin əmrində silahdaşları ilə birgə Vətən uğrunda döyüşlərə atılacağını bildirib.

2020-ci il sentyabrın 27-də Ali Baş Komandan cənab İlham Əliyevin əks-hücum əmrindən az sonra qismən səfərbərlik elan edildi. Onda Vaqifin böyük qardaşı Qaçay da hərbi xidmətdə idi. Vətəndaşlıq borcunu fədakarlıqla yerinə yetirirdi. Vaqif yenidən Vətən çağırışına ilk səs verənlərdən oldu. Onlar təlim mərkəzinə göndərildilər. Qısamüddətli təlimdən sonra Murovdağ istiqamətində döyüşlərə cəlb olunan hərbi hissədə xidmət edirdilər. Döyüşçülərimiz cəsarətlə vuruşur, düşmənə sarsıdıcı zərbələr endirirdilər.

Vaqif Hüseynovun da daxil olduğu bölmə əlverişli mövqe tutaraq düşmən qüvvələrini sıradan çıxarırdı. Çox keçmədi ki, onları Füzuli bölgəsinə göndərdilər. Qaçay da həmin bölmənin tərkibindəydi. Qardaşlar düşmənə qarşı eyni istiqamətdə döyüşürdülər. Füzuli rayonunun kəndləri düşmən qüvvələrindən təmizlənirdi. Seyidəhmədli kəndini azad etmək üçün hücum əmri verilmişdi. Düşmən ordumuzun qüdrəti qarşısında duruş gətirə bilmirdi. Oktyabrın 26-da gərgin döyüşlərdə Vaqif Hüseynov şəhid oldu...

Vaqifin atası Asəf, anası Züleyxa oğullarını Vətənə, xalqa dəyərli bir övlad kimi böyütdüklərini bildirirdilər.

Atası Asəf kişi dedi:

- Bir məsəl var: "Oğul düşmən çəpəridir". Vətənə, torpağa hücum edirlərsə, oğulların borcudur ki,




ana dediyimiz Vətəni yadellilərdən qorusunlar. Bu, müqəddəs borcumuzdu. Yüksək döyüş hazırlığı, peşəkarlıq, ilk növbədə, Vətənə, torpağa sevgi, əsgərlərimizin vətənpərvərliyi tarixi qələbənin əsası oldu. Qəhrəmanlar sırasında oğullarım - Qaçay da, Vaqif də Vətən borcunu şərəflə yerinə yetirdi. İndi Vaqif təkcə ailəsinin yox, Azərbaycan xalqının, Vətənin oğludur.

Anası Züleyxa xanım isə oğlunun qorxmazlığından, cəsarətindən danışdı:

- Vaqif cəsarətli, qorxmaz, qayğıkeş oğul idi. Onun yoxluğuna inana bilmirəm. Arzusu Türkiyədə təhsil almaq idi. Qəbul imtahanlarını vermişdi. Nəticəsi şəhidlik zirvəsinə ucaldıqdan sonra bilindi... Vətənə xidməti hər şeydən üstün tutdu...

Vaqif Asəf oğlu Hüseynov ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub. Təhsil aldığı məktəbin qarşısında xatirəsinə bulaq kompleksi tikilib. Hər gün şagirdlər, müəllimlər, kənd sakinləri onun xatirəsini hörmət və ehtiramla yad edirlər.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Hərbi qulluqçular şəhid ailələri ilə görüşüblər





Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Azərbaycan Ordusunun hərbi qulluqçuları şəhid ailələri ilə görüşüblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, müxtəlif bölgələrdə keçirilən görüşlərdə hərbi qulluqçular şəhidlərin ailə üzvləri ilə söhbətlər aparıb, onların qayğıları ilə maraqlanıblar.

Şəhidlərimizin məzarları ziyarət edilərək xatirələri dərin hörmət və ehtiramla yad olunub.

Azərbaycan Respublikası Prezidentinin cari ilin 7 noyabr tarixli müvafiq Sərəncamına əsasən, təltif edilən şəhid hərbi qulluqçuların medalları onların ailə üzvlərinə təqdim edilib.

Şəhidlərin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulduğuna görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyənin pilotsuz döyüş təyyarəsi ilk uçuşunu həyata keçirib




Türkiyənin Aviasiya və Aerokosmik Sənayesi (TUSAŞ) tərəfindən hazırlanan "ANKA-3" pilotsuz döyüş təyyarəsi ilk uçuşunu həyata keçirib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sosial media hesabında sınaq uçuşunun görüntüsünü paylaşıb.

"TUSAŞ tərəfindən hazırlanan pilotsuz döyüş təyyarəmiz "ANKA-3" bu gün ilk uçuşunu uğurla həyata keçirdi. İnşallah, təyyarəmiz qabaqcıl texnologiyaları, dizaynı və xüsusiyyətləri ilə ölkəmizin müdafiəsinə güclü töhfə verəcək", - deyə Prezident R.T.Ərdoğan paylaşımında vurğulayıb.

## ABŞ pilotsuz hərbi kosmik gəmini orbitə çıxarıb



ABŞ Silahlı Qüvvələrinin X-37B pilotsuz kosmik gəmisi NASA-nın Kennedi Kosmik Mərkəzindən SpaceX kompaniyasının Falcon Heavy raketi ilə orbitə çıxarılıb.

Bu, Amerikanın ən məxfi kosmik gəmisinin 2010-cu ildəki debütündən bəri yeddinci uçuşudur. O, orbitdə ümumilikdə 10 ildən çox fəaliyyət göstərib.

İndiyədək ən uzun sürən son uçuş iki il yarım davam edib.

Kosmik Qüvvələrin rəsmiləri orbital gəminin fəzada nə qədər qalacağını və göyərtəsində nə olduğunu açıqlamayıblar.

## Gürcüstan hava hücumundan müdafiə silahları alınmasına diqqəti artırıb



Gürcüstan yaxın illərdə hava hücumundan müdafiə baxımından regionun ən güclü dövlətlərindən birinə çevrilə bilər.

Bunu Gürcüstanın müdafiə naziri Cuançer Burmuladze deyib. Onun sözlərinə görə, nazirliyin müdafiə departamenti İspaniya, Polşa və İsveç şirkətləri ilə hava hücumundan müdafiə silahları alınmasına dair müqavilələri imzalayıb. Son iki-üç il ərzində bağlanan müqavilələrə əsasən ölkənin müdafiə qüvvələri mərhələli şəkildə həmin silahları qəbul edəcək. Müqavilələrin şərtlərinə görə, silah alınmasının əsas hissəsi 2025-ci ildə tamamlanacaq.

C.Burçuladze bildirib ki, bununla yanaşı, yerli istehsal da prioritet istiqamətlərdəndir: "Əgər biz zireh və dəbilqə istehsalında bir neçə il geridə idiksə, indi istehsalı 2-3 dəfə artırmışıq və artıq heç bir gecikməmiz yoxdur. Müdafiə Qüvvələrinin tələbatı bir il ərzində tam ödəniləcək".

Nazir deyib ki, Gürcüstan Müdafiə Nazirliyinin ölkənin müdafiə qabiliyyətini artırmaq üçün satınalmaları sayəsində iki ildən sonra Tbilisi üzərində səma tamamilə qorunacaq. Paytaxt səmasının hər üç eşalonu, o cümlədən strateji obyektlər - aeroportlar, hərbi bazalar hava hücumundan müdafiə olunacaq.

## Çinin yeni müdafiə naziri təyin olunub



Çinin qanunverici orqanı general Don Cünü ölkənin müdafiə naziri vəzifəsinə təyinatını təsdiqləyib.

Uzun illər hərbi dəniz qüvvələrində xidmət edən general Don Cün yeni təyinata qədər Çin Xalq Azadlıq Ordusunun hərbi dəniz qüvvələrinin komandanı olub.

Qeyd edək ki, əvvəlki müdafiə naziri Li Şanfu qanunverici orqanın qərarı ilə oktyabrda vəzifəsindən azad olunmuşdu.

**AZƏRTAC-ın materialları əsasında**

## Asudə vaxt

# Hərbi hissələrdə şəxsi heyətin asudə vaxtı səmərəli keçirilir

Vətən müdafiəçilərinin hərtərəfli mənalı istirahəti üçün alverişli şərait yaratmaq, onların psixoloji gərginliyini yüngülləşdirmək, hərbi xidmətdən azad vaxtlarda maraqlı mövzularda söhbətlər aparmaq, viktorinalar, sual-cavab axşamları, veteranlarla görüşlər keçirmək və şəxsi heyət arasında qarşılıqlı əlaqə yaratmaq məqsədilə hərbi hissələrin bölmələrində ideoloji otaqlar yaradılır. İdeoloji otaqların fəaliyyətinin təşkili üçün bölmələrdə ən fəallardan ibarət ideoloji otağın şura üzvləri seçilir. Onlar da hərbi qulluqçuları maraqlandıran tədbirlər keçirirlər. Beləliklə, "N" hərbi hissəsində olduğumuz zaman ideoloji otaqda əsgərlərimizin asudə vaxtlarının səmərəli təşkilinin gedişatı ilə yaxından tanış olduq. İdeoloji otağın şurasının sədri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Şahin Hüseynovun nəzarəti ilə əsgərlər stolüstü oyunlar oynayır, bədii kitab, jurnal və "Azərbaycan Ordusu" qəzetini oxuyurdular.



Kiçik çavuş Ş.Hüseynov şəxsi heyətin asudə vaxtının, istirahət və bayram günlərinin məqsədyönlü təşkilinin əhəmiyyətindən danışdı. "Müəyyən olunmuş saatlarda asudə vaxtın təşkilinə cavabdeh şəxslər bölmənin hərbi qulluqçuları ilə birlikdə disputlar, viktorinalar keçirir, müxtəlif idman oyunları və başqa tədbirlər təşkil edirlər. Şənbə günləri əsgərlər yerli radio dinləyir, hərbi vətənpərvərliyi tərənnüm edən musiqilərə qulaq asırlar. Bayramqabağı günlərdə nahar yeməyinə qədər yerli musiqi səsləndirmək, konsert proqramı təşkil etmək, xidmətdə fərqlənən əsgərlərimizi musiqi ilə təbrik etmək, tematik axşamlar, viktorinalar, mədəni yürüşlər, idman yarışları keçirmək çox faydalıdır. Həmçinin nahardan sonrakı dəqiqələrdə asudə vaxtı daha maraqlı keçirmək lazımdır. Çünki bu müddətə qədər şəxsi heyət bir neçə tədbirdə iştirak etmişdir və onun diqqətini ancaq yeni bir maraqlı tədbirlə cəlb etmək olar. Ona görə də miqyaslı və musiqili anlar, veteranlar, artistlər, ədəbiyyat və incəsənət xadimləri ilə görüşlər, istirahət axşamları, bədii özfəaliyyət konsertləri, məşqlər və s. tədbirlər bu vaxt təşkil oluna bilər. Eyni zamanda, şəxsi heyətə məktub yazmaq, mütaliə etmək, şahmat, dama oynamaq imkanı verilməsini də nəzərə almaq lazımdır".

Əsgər Ceyhun Əhmədov bildirdi ki, hər zaman əsgər olmaq və rəşadətli Azərbaycan Ordusunda şərəflə xidmət etmək istəyirdi. "Məktəb illərində "Çağırışaqədərki hazırlıq" fənnini maraqla dinləyir və hərbi mövzuda verilişlərə baxaraq sıra addımlarına, hərbi salamlaşmalara, məruzələrə və hərbin digər sirlərinə artıq yiyələnmişdim. Gənc əsgər dövrümdə isə heç bir çətinlik çəkmədən bütün hərəkətləri edirdim. Hər zaman da çalışmışam ki, xidmətimlə digər əsgər yoldaşlarımdan seçilim. Buna isə komandirlərimizin köməkliyi ilə nail oldum. Onu da qeyd edim ki, biz Azərbaycan əsgəri olaraq bu formanı daşıyarkən dövlətimizin mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacağımıza, hər an Vətənimizin müdafiəsinə qalxmağa hazır olacağımıza dair and içmişik. Andımızı isə xidmətimizin deyil, ömrümüzün sonunadək tutacağıq".

Əsgər Vüsal Alışov xidmətdən söz açdı. Dedi ki, hərbi xidmət məni qorxmaz, mərd, cəsur döyüşçü kimi yetişdirib. "Peşəkar komandirlərimizin rəhbərliyi ilə keçirilən dərs, məşğələ və təlimlərlə güc, qüvvət, döyüş və atəş hazırlığımızı, ictimai-siyasi dərslərin sayəsində isə tarixi biliklərimizi artırırıq. Yuxarı komandanlığın bizə göstərdiyi diqqət və qayğı nəticəsində isə sosial-məişət şəraitimiz yüksək səviyyəyə çatdırılıb. Məhz buna görə də xidmətimizi uğurla davam etdirib qarşıya qoyulan istənilən tapşırıqların öhdəsindən gəlməyə qadirik. Bu gün mən də hər bir Azərbaycan gənci kimi fəxr edirəm ki, regionun ən güclüsü və qalib Azərbaycan Ordusunun əsgəriyəm. Bu qüruru yaşadığım üçün sevinirəm. Xidmətimi Azərbaycan əsgərinə layiq olan şəkildə başa vurduqdan sonra ailəmin yanına başıuca qayıdacağam".

Əsgər Bəxtiyar Həsənov asudə vaxtlarını səmərəli keçirtmək üçün hərbi hissədə yaradılan şəraitdən söz açdı. "Bizim üçün yaradılan şəraitdən çox razıyıq. Komandirlərimiz bizə həm hərbi biliklər öyrədir, həm də qayğı ilə yanaşırlar. Buna görə də hər birimiz üzərimizə düşən vəzifəni məsuliyyətlə yerinə yetirir, verilən bütün əmr və tapşırıqları vaxtlı-vaxtında yerinə yetiririk. Xidmətimizin sonuna kimi Vətənimiz Azərbaycana şərəflə xidmət edəcək, onun ərazi bütövlüyü uğrunda lazım gələrsə, canımızdan belə keçəcəyik".

- Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında başlayan və cəmi 44 gün davam edən haqq savaşımızla rəşadətli Azərbaycan Ordusu güc və qüvvətini bütün dünyaya nümayiş etdirdi. Döyüşlər zamanı mənfur düşmənə göz açmağa imkan verməyən məğrur hərbçilərimiz isə vətənpərvərliyi və şücaəti ilə doğma torpaqlarımızı azad etdilər. Onların azad etdiyi bu torpaqları isə nəyin bahasına olursa-olsun, qorumaq hər birimizin həm övladlıq, həm də vətəndaşlıq borcumuzdur, - deyə əsgər Bəxtiyar Həsənov dedi.

**Kapitan**
**Orxan HÜSEYNLİ,**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

## Hərbi texnikalar, silahlar

# "Barak MX" hava hücumundan müdafiə sistemi

İsrail istehsalı olan "Barak MX" raket və aviasiya təhdidləri ilə mübarizə üçün nəzərdə tutulmuş modul tipli hava hücumundan müdafiə sistemidir. O, həm dəniz platformalarında, həm də quruda fəaliyyət göstərir. Bu sistem "Barak" raket ailəsinin modernləşdirilmiş versiyasına aiddir.

"Barak MX" havadan müdafiə sistemi döyüş təyyarələri, helikopterlər, kruiz raketlər, yer-hava və yerüstü raketlər, müxtəlif təyinatlı raketlərə əlavə olunur. "Barak" raketləri yük və yük maşınları ilə konteyner tipli daşımalar üçün də yararlıdır.



"Israel Aerospace Industries"in (IAI) məlumatına görə, "Barak MX"-nin innovativ, proqram təminatına əsaslanan modulyar yanaşması əməliyyatlarda müstəsna şərait yaradır və gələcək təhlükələrə asanlıqla uyğunlaşır. Bu isə onu bu gün ən güclü havadan müdafiə sistemlərindən biri edir.

"Barak MX" sistemi istənilən mövcud və yeni sensorlarla sadə inteqrasiyaya qadirdir. Bütün "Barak MX Land Deployable" komponentləri daimi infrastrukturdan idarə oluna və ya yük maşınına quraşdırıla və müvəqqəti əməliyyat sahələrinə yerləşdirilə bilər. Bu hava hücumundan müdafiə sistemi istənilən mövcud və yeni sensorlarla sadə inteqrasiyaya qadirdir.



"IAI"in bildirdiyinə görə, "Barak MX"-in innovativ proqrama əsaslanan modul yanaşması, əməliyyatda təhdidlərə sadə uyğunlaşmanı təmin edərək, hər cür hava şəraitində gecə və gündüz fəaliyyət göstərir.

"Barak MX" 16 kilometrədək yüksəklikdə 35, 70 və 150 kilometr məsafəli 3 raket növündən istifadə edə bilər. Sistem təyyarələri, pilotsuz uçuş aparatlarını, raketləri müəyyən edə və vura bilir.

**Hazırladı:**
**Könül CƏFƏRZADƏ**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan çempionatında fərqlənən taekvondoçular mükafatlandırılıblar



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan taekvondo üzrə Azərbaycan çempionatında yeniyetmələrin mübarizəsi başa çatıb.

Yarışda fərqlənən idmançıların mükafatlandırma mərasimi baş tutub.

Qaliblərə medalları Azərbaycan Taekvondo Federasiyasının prezidenti Kəmaləddin Heydərov, gənclər və idman naziri Fərid Qayıbov, Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Li İn-Yonq təqdim ediblər.

Qeyd edək ki, Bakı İdman Sarayında keçirilən yarışa Bakı, Sumqayıt, Abşerondan ümumilikdə 76 komanda qatılıb. Turnir dekabrın 28-də yekunlaşacaq.

## Azərbaycan boksçuları 2023-cü ildə 179 medal qazanıblar



Azərbaycan boksçularının 2023-cü ildə beynəlxalq yarışlarda qazandığı medalların sayı açıqlanıb.

Bu il müxtəlif yaş qruplarında üzrə milli komandalar 26 turnirdə ümumilikdə 179 medal əldə ediblər.

Onlardan 35-i qızıl, 37-si gümüş və 107-si bürüncdür. Nəticədə yığmalar ötən illə müqayisədə 132 faiz irəliləyişə nail olublar.

Boksçular 179 mükafatdan 11-ni Avropa, 3-nü dünya çempionatlarında qazanıblar. Yığmalar iştirak etdikləri mundial və qitə səviyyəli yarışların hər birindən Vətənə mükafatla qayıdıblar.

Həmçinin boksçular III Avropa Oyunlarında 2 dəfə fəxri kürsüyə qalxıb və eyni sayda "Paris-2024" Yay Olimpiya Oyunlarına lisenziya sahib çıxıblar. Milli komandanın hesabında Qızıl kəmər seriyasından, II MDB Oyunlarından və Beynəlxalq Universitet İdman Festivalından da medallar var.

Qeyd edək ki, 1 il öncə Azərbaycan boksçuları 15 beynəlxalq yarışda 77 (30-20-27) medal qazanıb.

## Azərbaycanın idman tarixində rekord göstərici: il ərzində 1472 medal



Azərbaycan idmançılarının 2023-cü ildə beynəlxalq yarışlarda qazandığı medalların sayı açıqlanıb.

Ümumilikdə il ərzində 1472 medal əldə olunub. Bu Azərbaycanın idman tarixində rekord göstəricidir.

Medallardan 799-u (214 qızıl, 208 gümüş, 377 bürünc) Olimpiya, 587-si (223 qızıl, 159 gümüş, 205 bürünc) qeyri-Olimpiya, 86-sı (27 qızıl, 31 gümüş, 28 bürünc) paralimpiya proqramının payına düşür.

**AZƏRTAC-ın**
**materialları əsasında**

Baş leytenant Məmmədov Muraz Şəhniyar oğluna məxsus MN № 0053212 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizirlər Bəkirov Turan Qalib oğluna məxsus SQ № 0028128 nömrəli və Abdullayev Məhəmməd Eldəniz oğluna məxsus SQ № 0018117 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları kiçik çavuş əsgər Nəbiyev Röyal İntiqam oğluna məxsus AD № 0058335 nömrəli, əsgər Göyüşov Tural Rafiq oğluna məxsus AD № 0062265 nömrəli, əsgər Mənəfov Bəhruz Saday oğluna məxsus AD № 0061504 nömrəli, əsgər Şəbizadə Ramal Cəmil oğluna məxsus AD № 0063788 nömrəli, əsgər İsmayılov Mahir Vaqif oğluna məxsus AD № 0056821 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
mayor
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 999
Nüsxə 4752